# Qəbələ: sosial-iqtisadi inkişafın əsas istiqamətləri

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat

# MƏRUZƏSİ

(Əvvəli 3-cü səhifədə).

ların "mavi yanacaq" təminatında vəziyyət əhəmiyyətli dərəcədə dəyişib. Bəhs olunan dövrdə bütün ölkə boyu çoxlu sayda qazlaşdırma layihələri reallaşdırılıb. Nəticədə, regionların "mavi yanacaq" təminatı yaxşılaşıb, hətta əvvəllər heç vaxt qazlaşdırılmamış yaşayış məntəqələrinə də yeni boru kəmərləri çəkilib.

Həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində ölkə üzrə qazlaşdırmanın səviyyəsi 94 faizə çatdırılıb. 2018-ci ilin sonunadək respublika miqyasında qazlaşdırmanın səviyyəsinin 95 faizə çatdırılması nəzərdə tutulub. İlin əvvəllərindən bəri yeni qazlaşdırma layihələri ilə bağlı işlər respublikanın 42 rayonunun 83 yaşayış məntəqəsində aparılıb və təxminən 40 yaşayış məntəqəsinə "təbii qaz" verilib.

Sosial təyinatlı obyektlərin inşa edilməsi ölkəmizdə də müasir infrastruktur quruculuğuna yaxşı nümunədir. Qeyd edək ki, son illər ölkə üzrə 3 mindən çox məktəb, 600-dən artıq tibb müəssisəsi, 50-dək olimpiya idman kompleksi tikilərək istifadəyə verilib.

Cənab İlham Əliyev digər infrastruktur layihələrində işlərin qrafik üzrə aparıldığını, bütün prinsipial məsələlərlə bağlı ölkəmizin milli maraqlarinin layiqincə yerinə yetirildiyini və bundan sonra da bu yolla gediləcəyini bildirib.

**Hörmətli yığıncaq iştirakçıları!**

2018-ci ilin ötən dövrü ölkəmiz üçün bütövlükdə siyasi baxımdan da əlamətdar olmuşdur.

Belə ki, aprelin 11-də müstəqil Azərbaycanın müasir tarixində böyük siyasi hadisə olan Prezident seçkiləri keçirilmişdir.

Yüksək demokratik şəraitdə keçirilən seçkilərdə müdrik xalqımız növbəti dəfə Heydər Əliyev siyasi kursuna, inkişafa, tərəqqiyə, sabitliyə, ölkəmizin firəvan gələcəyinə səs vermiş, bütün uğurlarımızın səbəbkarı, xalqın sevimli oğlu möhtərəm cənab İlham Əliyev 86,2 faiz səs çoxluğu ilə növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

**Hörmətli toplantı iştirakçıları!**

2018-ci ilin doqquz ayı Qəbələ rayonunun da ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaddaqalan olmuşdur.

Cari ilin doqquz ayı ərzində iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 165.887,0 min manatlıq məhsul istehsal edilmiş, ötən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı rayon üzrə 39.787,0 min manat, yaxud 31,6 faiz artmışdır. Keçən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı sənayedə 22.003,0 min manat, yaxud 96,4 faiz, kənd təsərrüfatında 1.116,0 min manat, yaxud 2,1 faiz, tikintidə 14.314,0 min manat, yaxud 68,2 faiz, nəqliyyatda 95,0 min manat, yaxud 3,3 faiz, rabitədə 67,0 min manat, yaxud 8,3 faiz, ticarətdə 2.192,0 min manat, yaxud 8,3 faiz artmışdır.

Bu dövrdə adambaşına düşən ümumi məhsul buraxılışı 1560 manat təşkil etmişdir.

Doqquz ay ərzində sənaye müəssisələrində çalışan 1.438 nəfər işçinin orta aylıq nominal əmək haqqı 330 manat olmuşdur.

Əsas kapitala yönəlmiş investisiyanın həcmi 36.437,2 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 35.305,1 min manat təşkil etmişdir.

2003-cü ilin oktyabr ayından 1 oktyabr 2018-ci ilədək 15.990-ı daimi olmaqla, 17.789 yeni iş yeri açılmışdır. Doqquz ay ərzində açılmış yeni iş yerlərinin sayı 1.083 olmuşdur ki, həmin iş yerlərinin hamısı daimi iş yeridir.

Qəbələ Rayon Məşğulluq Mərkəzində işaxtaran kimi qeydiyyatdan keçmiş 1319 nəfərdən 518 nəfər münasib işlə təmin edilmişdir.

O cümlədən Qəbələ Mənzil İstismar və Kommunal Müəssisələr Kombinatında 60 nəfər, Qəbələ Təmit Tikinti Şirkəti MMC-də 55 nəfər, Qəbələ Yaşıllaşdırma MMC-də 150 nəfər müvafiq işlə təmin olunmuşdur.

"Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 aprel 2016-cı il tarixli, 1.941 nömrəli Sərəncamının icrası ilə əlaqədar müvafiq işlər davam etdirilmiş, doqquz ay ərzində öz bizneslərinə başlamaları üçün tələb olunan aktivlərlə təmin olunmuş 16 nəfər vətəndaşın istifadəsində olan aktivlər onların mülkiyyətinə verilmişdir. Həmin vətəndaşlardan 8 nəfər ətlik-heyvandarlıqla, 4 nəfər südlük-heyvandarlıqla, 1 nəfər arıçılıqla, 1 nəfər kiçik qəlyanaltı sahəsində, 1 nəfər kompüter təmiri, çap və poliqrafiya sahəsində, 1 nəfər isə avtomobil təmiri sahəsində fəaliyyət göstərir.

Özünüməşğulluq proqramının növbəti mərhələsində iştirak etmək üçün müraciət etmiş vətəndaşlardan 269 nəfərin müraciəti araşdırılmış, onlardan 233 nəfərinin həyətyanı sahəsinə və biznes ideyasını reallaşdırması üçün malik olduğu digər resurslara baxış keçirilmişdir. Müraciəti araşdırılmış vətəndaşların 90 nəfəri "Öz biznesinə başla və təkmilləşdir" təlimlərinə cəlb edilmiş, onların 89 nəfəri təlimləri uğurla başa vurmuşdur. Hal-hazırda təlimləri bitirmiş vətəndaşların biznes planlarının müdafiəsinin təşkili istiqamətində işlər həyata keçirilir.

"Ərazi Məşulluq Proqramı"na uyğun olaraq 16 may 2018-ci il tarixdə aktiv məşğulluq tədbiri olan "Əmək Yarmarkası" keçirilmişdir. Yarmarkada 210 boş iş yeri təqdim edərək 34 müəssisə və təşkilat, 360 nəfər işaxtaran vətəndaş iştirak etmiş, onlardan 65 nəfər işlə təmin olunmuşdur.

Hesabat dövründə işaxtaran vətəndaşlardan 12 nəfər 2 aylıq kompüter mühasibliyi peşə kursuna cəlb edilmiş, 4 nəfər vətəndaş bir aylıq ictimai işlərə cəlb edilmiş, 11 nəfər "Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaş" işlə təmin olunmuş, 5 nəfərə işsizlikdən sığorta ödənişi təyin olunmuşdur.



Rayonun yerli gəlirləri 2018-ci ilin doqquz ayının yekunlarına görə 10.894,4 min manat proqnoza qarşı 15.199,7 min manat (139,5 faiz) və ya 4.305,3 min manat çox yerinə yetirilmişdir. Yerli gəlirlərə aid olan məbləğ 5.005,0 min manat proqnoza qarşı 6.965,6 min manat (139,2 faiz) və ya 1.960,6 min manat çox, yerli xərcləri 4.887,0 min manat proqnoza qarşı 4.949,6 min manat (101,3 faiz) və ya 62,6 min manat çox icra olunmuşdur. Gəlirlərin mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsi 5.863,8 min manat proqnoza qarşı 8.216,7 min manat (140,1 faiz) və ya 2.352,9 min manat çox icra olunmuşdur.

Yerli gəlirlər üzrə proqnozlaşdırılmış 10 növ gəlirdən 3-ü üzrə proqnoz tapşırıqlar kəsrlə yerinə yetirilərək qeyd olunan gəlirlər üzrə büdcəyə 251,4 min manat az vəsait daxil olmuşdur. Digər 7 növ gəlirlər üzrə 2212,0 min manat çox vəsait daxil olaraq rayonun gəlirləri ümumilikdə 1960,6 min manat çox yerinə yetirilmişdir.

Yerli gəlirlər üzrə ümumilikdə daxil olmuş 15199,7 min manat vəsitdən 6965,6 min manatı rayonun yerli gəlirlərinə, 17,4 min manatı qanunamüvafiq qaydada "Avtomobol yolları" Məqsədli Büdcə Fonduna, 8216,7 min manatı isə mərkəzləşdirilmiş gəlirlərə aid edilmişdir.

Rayonun yerli xərcləri icra hakimiyyəti orqanlarının saxlanması xərcləri üzrə 44,5 min manat, elm xərcləri üzrə 0,2 min manat, səhiyyə xərcləri üzrə 116,0 min manat, məktəbəqədər təhsil xərcləri üzrə 15,9 min manat, mənzil təsərrüfatı xərcləri üzrə 0,6 min manat çox, kommunal təsərrüfatı xərcləri üzrə 41,6 min manat, sair xərcləri üzrə 73,0 min manat az olmaqla, ümumilikdə doqquz ay ərzində 62,6 min manat təyinatdan çox icra olunmuşdur.

Bəzi bölmələr üzrə əmək haqqı və ona üstəlik xərclərin təyinatdan artıq olmasının səbəbi əməkhaqlarının orta hesabla 10 faiz artması ilə əlaqədar olmuşdur.

Digər bölmələr üzrə xərclərin təyinatdan az icra olunmasının səbəbi isə əmək haqqı və ona üstəlik xərc maddələrində qənaətin yaranması bəzi xərclər üzrə vasaitin ödənilməməsi olmuşdur.

Yerli büdcənin hesabında və təşkilatların ayrı-ayrı xərc maddələri üzrə limit qalığında 1 oktyabr 2018-ci il tarixə 2016,0 min manat vəsait qalığı yaranmışdır.

**Hörmətli toplantı iştirakçıları!**

Ötən müddət ərzində xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən gəlmişlər. Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.

Doqquz ay ərzində bütün növ istehlakçı qruplar tərəfindən 90.349,6 min kvt/saat elektrik enerjisi istehlak edilmiş, 7.571,9 min manata qarşı 6.851,0 min manat vəsait toplanaraq yığım planı 90,5 faiz yerinə yetirilmişdir. Həmin göstərici büdcə təşkilatları üzrə 60,6 faiz, dövlət müəssisələri üzrə 78,5 faiz, ticarət xidməti üzrə 92,4 faiz, özəl sənaye üzrə 92,3faiz, əhali qrupu üzrə isə 93,9 faiz olmuşdur.

10 kV-luq hava xəttinin 22,7 km məsafəsində əsaslı və cari təmir işləri aparılmışdır. 10 kV-luq Bum, Vəndam, Mıxlıqovaq, Qaradeyin elektrik verilişi xətlərində 149 ədəd fiziki köhnəlmiş ağac dayaq metal dayaqlarla əvəzlənmiş, 19,5 km məsafədə fiziki köhnəlmiş naqillər dəyişdirilmişdir. 10/0,4 kV-luq transformator yarımstansiyalarında 8 ədəd 400 A-lik, 2 ədəd 250 A-lik ayrıcı quraşdırılmışdır. Qəbələ Paylayıcı Şəbəkə Sahəsinin xidməti ərazisindəki 86 km məsafədə 0,4 kV-luq fiziki köhnəlmiş və istismara yararsız naqillər özünü daşıyan izolyasiyalı naqillərlə əvəz edilmiş, 1.396 ədəd fiziki köhnəlmiş 0,4 kV-luq ağac dayaqlar yeni müasir tipli dəmir beton və dəmir dayaqlarla əvəz edilmiş, 174 ədəd transformator yarımstansiyasının qoruq zonası alaq otlar və yabani kollardan təmizlənmiş, 25,4 km məsafədə 0,4 kV-luq hava xəttinin trassında ağac kütlələrdən təmizləmə işləri aparılmışdır. 30 ədəd transformator yarımstansiyasının 0,4 kV-luq çıxışında zədəli kabellər yenisi ilə əvəz edilmişdir.

Təbii qaz istehlakçıları tərəfindən ilin ötən dövrü ərzində 27.356,3 min kub/metr təbii qaz istehlak edilmiş, 3.825,8 min manata qarşı 4.035,5 min manat vəsait toplanaraq ümumi yığım məbləği 105,5 faiz olmuşdur. Həmin göstərici əhali sektoru üzrə 115,4 faiz, büdcə təşkilatları üzrə 78,4 faiz, sənaye, kommersiya və digər təşkilatlar üzrə 100,0 faiz, kommunal təşkilatlar üzrə isə 36,0 faiz təşkil etmişdir.

260 yeni abonentə təbii qaz verilərək, əhali abonentlərin ümumi sayı 18.357-ə çatdırılmışdır. Xidmət sahəsi doqquz ay ərzində istismara yararsız 4.779 p/m xətti yenisi ilə əvəz etmişdir."Təmiz Qaz" MMC və xidmət sahəsi tərəfindən aşkar olunmuş 7.928 sızma ləğv edilmişdir. İşləməyən 197 sayğac əvəzlənərək dövlət yoxlamasına göndərilmişdir. Dövlət Proqramı üzrə Azəriqaz İB-nin sifarişi ilə 91 abonent, fərdi qaydada 169 abonent, ümumilikdə 260 əhali abonent və 9 qeyri əhali abonent qazla təmin olunmuşdur. Hazırda rayonun Mıxlıqovaq və Kötüklü kəndlərində qazlaşma işləri davam etdirilir.

Qəbələ Su-kanal İdarəsi tərəfindən Qaraçay və Duruca su mənbələrində yerləşən anbarlar lil və qumdan təmizlənmiş, cari təmir işləri görülmüşdür. Şəhərin Heydər Əliyev prospektində, Nizami Gəncəvi, İmadəddin Nəsimi, İsmayıl bəy, Məhəmməd Füzuli, Abbas Səhhət küçələrində və mərkəzi kanalizasiya xətlərində təmir-bərpa işləri aparılmışdır. Hazırda şəhərin su və kanalizasiya təchizatının yenidən qurulması sahəsində ikinci mərhələ üzrə işlər davam etdirilir. Layihənin icrası ilə əlaqədar indiyədək müxtəlif diametrli borularla 24,5 km su xətləri, 22,8 km kanalizasiya xətləri çəkilmiş, 940 su və 1420 kanalizasiya birləşmələri verilmiş, 1203 ədəd su sayğacı quraşdırılmışdır. Doqquz ay ərzində 381,5 min manat dəyərində su və kanalizasiya xidməti göstərilmişdir. Yığım faizi əhali sektoru üzrə 97,0 faiz, büdcə üzrə 101,0 faiz, kommersiya və digər təşkilatlar üzrə 98,0 faiz təşkil etmişdir.

Qəbələ Rayon Mənzil İstismar və Kommunal Müəssisələr Kombinatı doqquz ay ərzində şəhər təsərrüfatına 261,5 min manat, ictimai yaşayış binalarına 39,1 min manat, idarə və müəssisələrə 66,9 min manat, kommersiya obyektlərinə və fərdi təsərrüfatlara 14,7 min manat olmaqla cəmi 382,2 min manat dəyərində tə-

(Ardı 5-ci səhifədə).